# Azərbaycan Prezidenti İlham Əliyev Finlandiyanın sabiq Prezidenti xanım Tarya Haloneni qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın11-də Finlandiya Respublikasının sabiq Prezidenti xanım Tarya Haloneni qəbul edib.

Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi IV Qlobal Bakı Forumunun yüksək səviyyədə keçirilməsindən məmnunluq ifadə edildi. Forumun artıq aparıcı beynəlxalq müzakirə məkanları ilə eyni sırada dayandığı vurğulandı. Tədbirdə müzakirə edilən məsələlərin beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəyi əminliklə qeyd olundu.

**AZƏRTAC**